No: 01 2026
https://doi.org/10.64400/ea26-01-28
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT GƏNCLƏR VƏ İDMAN SİYASƏTİNİN İNSTİTUTLAŞMASININ BAŞLIÇA İSTİQAMƏTLƏRİ

**Xəlil YUSİFLİ**
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
**Yazışılan müəllif: yusiflixalil1@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* *03.03.2026*
*Nəşr edilmə tarixi:* *17.03.2026*

**AÇAR SÖZLƏR:**
Gənclər və idman siyasəti, İnstitutlaşma, Hüquqi-normativ təminat, Dövlət idarəetməsi, Gənclər təşkilatları

**XÜLASƏ**
Məqalədə Azərbaycan Respublikasında 30 ildən artıqdır həyata keçirilən dövlət gənclər və idman siyasətinin institutlaşmasının əsas istiqamətləri araşdırılmışdır. Tədqiqatın məqsədi dövlət gənclər və idman siyasətinin institutlaşmasının dövlət siyasətinin səmərəliliyinə və gənclərin sosial-iqtisadi inkişafına təsirini müəyyən etməkdir. Tədqiqat çərçivəsində dörd başlıca istiqamət təhlil olunmuşdur: normativ-hüquqi təminatın formalaşdırılması, dövlət idarəetməsi və dövlət institutların inkişafı, gənclər təşkilatlarının dəstəklənməsi, eləcə də beynəlxalq inteqrasiya və qlobal əməkdaşlığın gücləndirilməsi. Məqalədə metod olaraq Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər və Dövlət Proqramları ictimai elmlərdə geniş istifadə olunan kontent-analizi və tarixi metodlardan istifadə edilməklə təhlil edilmişdir. Aparılan təhlillər göstərir ki, Azərbaycan Respublikasının gənclər və idman siyasəti yüksək institutlaşma səviyyəsinə malikdir; bu isə gənclərin iştirakçılığının artırılmasına və onların problemlərinin məhz özlərinin fəal iştirakı ilə aradan qaldırılmasına şərait yaradır. Beləliklə, dövlət gənclər və idman siyasətinin institutlaşması təşkilatların və prosedurların sabitləşdirilməsi, dövlətin rolunun gücləndirilməsi və gənclərin sosial-iqtisadi inkişafının təmin olunması ilə xarakterizə olunur.

## GİRİŞ

Gənclər unikal sosial-demoqrafik qrup olaraq cəmiyyətin inkişafında əsas hərəkətverici qüvvə kimi çıxış edirlər. Gənclərin inkişafı isə gənclərə yönəlik dövlət siyasətindən asılıdır. Bu siyasət bir çox ölkələrdə gənclər siyasəti adlanır. Gənclər siyasətinin məqsədi məşğulluq, təhsil, sağlamlıq, mənzil təminatı, asudə vaxtın təşkili və ictimai iştirak kimi bir çox sahələrdə gənclərin inkişafını təmin etməkdir. 2014-cü ilin statistik məlumatlarına əsasən, dünyada 198 ölkənin 122-də gənclər siyasəti həyata keçirilməkdədir. 2016-cı ildə isə bu göstərici 131-ə çatmışdır (Oxfam, 2016, s. 13).

Gənclər siyasətinin tərifi və xüsusiyyətləri ilə bağlı vahid qəbul edilmiş bir konsepsiya yoxdur. Hər bir ölkə öz sosial-iqtisadi şəraitindən asılı olaraq milli gənclər siyasətini formalaşdırır. Bu səbəbdən də gənclər siyasətinin institutlaşması müxtəlif istiqamətlər üzrə baş verir. İnstitutlaşma təşkilatların və prosedurların dəyər qazanması və sabitlik əldə etməsi prosesidir. Hər hansı bir siyasi sistemdə institutlaşma səviyyəsi onun təşkilat və prosedurlarının uyğunlaşma qabiliyyəti, mürəkkəbliyi, muxtariyyəti və daxili uzlaşması ilə müəyyən edilə bilər. Tarixi baxımdan siyasi institutlar sosial qüvvələr arasında qarşılıqlı əlaqə və fikir ayrılıqları, həmçinin bu fikir ayrılıqlarının həlli üçün prosedurların və təşkilati mexanizmlərin tədricən inkişafı nəticəsində formalaşmışdır. Kiçik və homogen hakim sinfin parçalanması, sosial qüvvələrin şaxələnməsi və bu qüvvələr arasında qarşılıqlı əlaqənin güclənməsi siyasi təşkilatların və prosedurların meydana çıxmasının, nəticə etibarilə isə siyasi institutların yaranmasının əsas ilkin şərtləridir (Huntington, 1968, s. 12). Gənclər də cəmiyyət daxilində olduqca heterogen bir qrup olduqlarından, onlara yönəlik siyasi institutlar və prosedurlar da daha mürəkkəb xarakterə malikdirlər.

Azərbaycan Respublikasında Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan gənclər siyasəti 2003-cü ildən sonra Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və inkişaf etdirilir. Müasir sivil dövlətlərdə, o cümlədən Azərbaycanda, idman siyasəti gənclər siyasətinə inteqrasiya olunaraq vahid siyasət çərçivəsində həyata keçirilir (Aslanli, 2023, s. 133). 30 ildən artıqdır ki, Azərbaycanda reallaşdırılan gənclər və idman siyasətinin inkişafı və xüsusiyyətlərinə əsasən, onun institutlaşmasının 4 başlıca istiqamətini müəyyən etmək mümkündür.

Bura aiddir:

1. Normativ-hüquqi təminatın formalaşdırılması;

2. Dövlət idarəetməsi və dövlət institutların inkişafı;
3. Gənclər təşkilatlarının dəstəklənməsi;
4. Beynəlxalq inteqrasiya və qlobal əməkdaşlığın gücləndirilməsi.

## MATERİAL VƏ METODLAR

Tədqiqatın materialı əsasən Azərbaycan Respublikasında gənclər və idman siyasəti çərçivəsində qəbul edilmiş sərəncamlar, fərmanlar və dövlət proqramlarından ibarətdir. Elmi ədəbiyyat kimi xüsusilə Həmzə Cəfərovun "Azərbaycan gənclər hərəkatı (XX əsr)" və "Azərbaycan gənclər hərəkatı: yeni inkişaf mərhələsində" əsərlərindən istifadə olunmuşdur. Məqalədə metod olaraq ictimai elmlərdə geniş tətbiq olunan kontent-analizi və tarixi metodlardan istifadə edilmişdir.

## ƏSAS HİSSƏ

Gənclərin inkişafı onların fəaliyyət göstərdiyi hüquqi və siyasi mühitdən bilavasitə asılıdır. Bu baxımdan, gənclər siyasətində normativ-hüquqi təminatın formalaşdırılması gənclərin sosial-iqtisadi inkişafının, hüquqlarının müdafiəsinin və siyasi iştirakçılığının dəstəklənməsində mühüm rol oynayır. Qanunlar və normativ aktlar dövlət siyasətinin əsas icra mexanizmləri kimi çıxış edərək, dövlət institutlarının və prosedurlarının fəaliyyətini tənzimləyir, bununla da gənclər siyasətinin sistemli və koordinasiyalı şəkildə həyata keçirilməsinə imkan yaradır. Gənclər siyasətini həyata keçirən bir çox ölkələrin Konstitusiyalarında və qanunvericilik aktlarında gənclərlə bağlı müddəalar öz əksini tapmışdır. Biz bu hüquqi aktları təhlil edcərək ölkədə gənclər siyasətinin hansı səviyyədə həyata keçirildiyini müəyyən edə bilərik.

Azərbaycan Respublikasının Konstitusiyası Ümummilli Lider Heydər Əliyevin uzunmüddətli və gərgin səyləri nəticəsində hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmişdir. Konstitusiya gənclər siyasəti üçün əsaslı hüquqi çərçivə formalaşdıraraq, gənclərin hərtərəfli inkişafının və ictimai həyatda fəal iştirakının təşviqinə yönəlmişdir. Konstitusiyada birbaşa gənclərlə bağlı xüsusi maddələr yer almasa da, əks olunan müddəalar gənclərində sosial-iqtisadi və hüquqi təminatlar vasitəsilə dəstəklənməsini, onların hüquqlarının genişləndirilməsini və rifahının qorunmasını nəzərdə tutur (Hasankhanli, 2025, s. 168). Xüsusilə, 44-cü maddə vətəndaşların seçki hüququnu və dövlət idarəçiliyində iştirakını təmin etməklə, gənclərin ölkənin ictimai-siyasi həyatında fəal iştirakına hüquqi əsas yaradır. Günümüzə kimi gənclər siyasəti çərçivəsində qəbul edilən bütün hüquqi aktlar da Konstitusiyanın prinsiplərinə əsasən hazırlanmışdır (Azərbaycan Respublikasının Konstitusiyası, 1995).

Milli gənclər siyasətinin əsas fundamental və milli qanunu 2002-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Gənclər siyasəti haqqında" Qanundur (Cəfərov, 2009, s. 371). Bu Qanun gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Qanuna əsasən Azərbaycan Respublikasının gənclər siyasəti gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemidir (Azərbaycan Respublikasının Gənclər Siyasəti Haqqında Qanunu, 2002).

Ümumilikdə, 1996-cı ildən etibarən Heydər Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən gənclər siyasətinin məntiqi nəticəsi kimi normativ-hüquqi bazanın formalaşdırılması və təkmilləşdirilməsi məqsədilə bir sıra qanunvericilik aktları və dövlət proqramları qəbul edilmişdir. Bunlara "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, "Gənc ailə", "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında" dövlət proqramları, "Dövlət Gənclər Siyasəti haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən dövlət proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Proqramını aid etmək olar (Cəfərov, 2009, s. 370).

Prezident İlham Əliyevin rəhbərliyi dövründə gənclər siyasətinin həyata keçirilməsi məqsədilə çoxistiqamətli dövlət proqramları qəbul edilmişdir. Bu proqramlara "Azərbaycan Gəncliyi Dövlət

Proqramı (2005–2009)", "Azərbaycan gəncliyi 2011–2015-ci illərdə" Dövlət Proqramı və "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramı daxildir. Sözügedən dövlət proqramları gənclərin dövlət idarəçiliyində və ictimai həyatda fəal iştirakını təşviq edir, iqtisadiyyatın və cəmiyyətin digər sahələrində sosial faydalı fəaliyyət göstərmələri üçün institusional və təşkilati zəmin formalaşdırır (Bağırzadə, 2025).

Gənclər siyasətində müasir mərhələnin və inkişafın əsas göstəricisi Prezident İlham Əliyevin xüsusi sərəncamı ilə təsdiqlənən "2015–2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf strategiyası"-dır. Bu strategiya ilə Azərbaycan Respublikasının gənclər siyasətində yeni bir mərhələ başlamışdır. Strategiya dövlət gənclər siyasətinin bütün istiqamətlərini və məqsədlərini əhatə edir. Strategiyada onillik dövr ərzində gənc nəslin potensialının müasir tələblərə uyğun inkişaf etdirilməsi, bu potensialdan dövlətin gələcək inkişaf maraqları naminə istifadə edilməsi və gənclər arasında fəal vətəndaş mövqeyinin formalaşdırılması əsas məqsədlərdən hesab olunur (2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası, 2014).

10 illik strategiya dövründə əldə edilməsi gözlənilən nəticələrə gənclərin təhsil və təlim səviyyəsinin yüksəldilməsi, məzun olan gənclərin münasib işlə təmin olunması, əmək bazarının vəziyyətinin yaxşılaşdırılması və gənc nəsil arasında işsizlik səviyyəsinin mərhələli şəkildə azaldılması daxildir. Dünya standartlarına cavab verən yüksək ixtisaslı gənc işçi qüvvəsinin formalaşdırılması, eləcə də gənclərin elmə, texnologiyaya və yaradıcılıq sahələrinə marağının artırılması da bu proqram sənədinin ən mühüm cəhətini təşkil edir.

Dövlət idarəetməsi - müvafiq prosedur əsasında hazırlanmış siyasi kursun praktiki həyata keçirilməsi üçün dövlət hakimiyyət orqanlarının, onların vəzifəli şəxslərinin fəaliyyətidir (Rzayev, 2021, s. 86). Müasir dövrdə bir çox ölkədə milli səviyyədə gənclərlə bağlı məsuliyyət daşıyan və gənclər siyasətini həyata keçirən dövlət orqanları mövcuddur. Bu qurumlar nazirlik, idarə və ya şöbə şəklində fəaliyyət göstərir. Adətən onların adları "Gənclər və İdman Nazirliyi" və ya "Gənclərlə iş üzrə Nazirlik" kimi müəyyən edilir. Bu qurumlar qanun və siyasət çərcivəsində gənclər üçün əsas məsuliyyət daşımağa təyin olunmuş və ya gənclərlə bağlı əsas icraedici dövlət institutları kimi tanınır. Demək olar ki, bütün ölkələrdə, 190 ölkənin 96%-ində gənclərlə bağlı məsuliyyət daşıyan milli səviyyədə dövlət orqanı mövcuddur (Youth Policy Press, 2014, s. 34).

Azərbaycan Respublikasında gənclər və idman siyasəti mərkəzləşdirilmiş idarəetmə anlayışına əsaslanır. İlk dəfə 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradıldı. Daha sonra, 2001-ci ildə Nazirlik Gənclər, İdman və Turizm Nazirliyinə çevrildi. 2006-cı ildə isə Prezident İlham Əliyevin fərmanı ilə bu Nazirliyin əsasında yenidən Gənclər və İdman Nazirliyi təsis edildi. Nazirlik ölkədə gənclər, bədən tərbiyəsi və idman sahələrində dövlət siyasətini həyata keçirən və tənzimləyən mərkəzi icra hakimiyyəti orqanı kimi fəaliyyət göstərir.

Azərbaycanda dövlət gənclər və idman siyasətinin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi ilə yanaşı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları və bir sıra digər dövlət qurumları da aktiv şəkildə iştirak edirlər.

Regionlarda gənclər və idman siyasətinin həyata keçirilməsində əsas aktorlar Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin regional Gənclər və İdman idarələridir. Xüsusilə son illərdə region səviyyəsində gənclər və idman siyasətinin reallaşdırılmasında mühüm rol oynayan institutlardan biri də "Gənclər evi" sosial xidmət müəssisələridir. Gənclər evləri "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun 5.5-ci maddəsinə uyğun olaraq gənclərin ahəngdar inkişafının təmin edilməsi, asudə vaxtının səmərəli təşkili, habelə gənclərə sosial-psixoloji, hüquqi və informasiya dəstəyinin göstərilməsi məqsədilə yaradılmışdır. Hazırda ölkənin müxtəlif regionlarında - Ağstafa, Astara, Balakən, Binəqədi, Göygöl, Lənkəran, Naxçıvan, Sabunçu, Şəmkir, Gəncə, Bakı və Azərbaycanın digər bölgələrində - təxminən 30 gənclər evi fəaliyyət göstərməkdədir (Shafibayli, 2023).

Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq gənclər siyasətinin idarəetməsinin təkmilləşdirilməsi məqsədilə bir sıra yeni qurumlar yaradılmışdır. Bunlardan biri 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında

Gənclər Fondunun bazasında yaradılmış "Azərbaycan Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsidir. Gənclər Fondu qısa müddət ərzində gənclər siyasətinin əsas aktorlarından birinə çevrilmişdir. Fondun gənclər siyasəti sahəsində fəaliyyəti gənclər siyasəti çərçivəsində elm, təhsil, mədəniyyət və digər sosial sahələr üzrə dəstəyin göstərilməsi, eləcə də gənclərin inkişafı ilə bağlı qəbul edilmiş proqramların hazırlanmasında və icrasında iştirak etməkdən ibarətdir. Son on il ərzində Fond 4,550-dən çox layihəyə qrant ayırmış, 650-dən çox gəncin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində magistratura təhsili xərclərinə dəstək göstərmiş və 330-dan çox beynəlxalq tədbirin maliyyələşdirilməsini həyata keçirmişdir (YouthFoundation, 2026).

Gənclər siyasətinin icrasında qeyri-hökumət gənclər təşkilatları dövlət institutları ilə yanaşı əhəmiyyətli tərəfdaş kimi çıxış edir. Bu təşkilatlar müxtəlif sahələrdə gənclərlə fəaliyyət göstərir, onların potensialını və peşəkar bacarıqlarını inkişaf etdirə biləcəkləri şəraiti təmin edir. Eyni zamanda, gənclər təşkilatları demokratiya üzrə təhsil mərkəzi rolunu oynamağa çalışır, bu əsasla gənclər bu təşkilatlar vasitəsilə cəmiyyətdə öz fikirlərini ifadə etmək və ictimai-siyasi proseslərdə fəal iştirak etmək imkanına malik olurlar (Hahn-Bleibtreu & Molgat, 2012, s. 239-240).

Azərbaycanda gənclər siyasəti çərçivəsində gənclər təşkilatları dövlət tərəfindən dəstəklənir və Azərbaycan Respublikasının sosial-iqtisadi, mənəvi və mədəni inkişafına öz töhfələrini verirlər. Bu təşkilatların aktiv fəaliyyəti gənclər siyasətinin səmərəliliyini artırır. Gənclər və İdman Nazirliyi respublikada fəaliyyət göstərən bütün gənclər təşkilatları ilə sıx əməkdaşlıq edir (Cəfərov, 2009, s. 377). 1998-ci ilin əvvəllərində, II Gənclər Forumu ərəfəsində gənclər təşkilatlarının sayı təxminən 60 idi. Bundan sonra gənclər təşkilatlarının fəaliyyəti daha da genişlənmiş, dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi nəticəsində onların sayı sürətlə artmışdı. Bu prosesin nəticəsi olaraq, 2000-ci ilə gəldikdə gənclər təşkilatlarının sayı artıq 120-dən çox olmuşdur (Cəfərov, 2009, s. 390). Hazırda 270-dən çox gənclər təşkilatı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində rəsmi qeydiyyatdan keçərək fəaliyyət göstərir. Bu gənclər siyasətinin həyata keçirilməsində vətəndaş cəmiyyəti institutlarının rolunun genişləndiyinin göstəricisidir (2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası, 2014). Gənclərin təşkilatlarının əksəriyyəti konfederativ qurum olan 1995-ci ildə 11 gənclər təşkilatı tərəfindən yaradılan Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasında birləşmişdi. Milli Şuranın əsas məqsədləri tərkibinə daxil olan gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək və gənclərlə iş sahəsində birgə fəaliyyət göstərməkdir (Cəfərov & İmaməliyev, 2012, s. 62). 2014-cü ilin statistikasına əsasən, ölkələrin 66,2%-də (131 ölkə) milli gənclər təşkilatları şurası və ya assosiasiyası fəaliyyət göstərir ( Youth Policy Press, 2014, s. 30).

Ümumilikdə, Azərbaycanda gənclər təşkilatlarını iki əsas qrupa bölmək mümkündür. Birinci qrupa gənclərin sosial, mədəni və ictimai həyatda fəallığını artırmaq məqsədilə fəaliyyət göstərən ictimai gənclər təşkilatları daxildir. Bu qurumlar gənclərin problemlərinin həlli, onların asudə vaxtının düzgün təşkili, sosial inteqrasiyası və fərdi potensialının inkişafı istiqamətində fəaliyyət göstərirlər.

İkinci qrupa isə müxtəlif siyasi partiyalar nəzdində formalaşan partiyaların gənclər birlikləri aid edilir. Hazırda Azərbaycanda ondan artıq siyasi partiyanın gənclərdən ibarət strukturları mövcud olsa da, onların əksəriyyəti aktiv fəaliyyət göstərmirlər. Bu kontekstdə 1992-ci ilin noyabrında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyi xüsusi nüfuza malikdir. Partiya sıralarının təxminən 40%-ni gənclərin təşkil etməsi onların siyasi proseslərdə iştirakının yüksək səviyyədə olduğunu göstərir (Cəfərov, 2012, s. 188).

Gənclər siyasətinin qlobal səviyyədə harmonizasiyası beynəlxalq standartların tətbiqinə, qabaqcıl təcrübələrin mübadiləsinə və ölkələr arasında əməkdaşlıq imkanlarının genişlənməsinə şərait yaradır. Beynəlxalq təşkilatların gənclərin problemlərinin həllinə yönəlmiş təşəbbüsləri bu əməkdaşlığın dərinləşməsini və institusional inkişafını daha da sürətləndirir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əsas fəaliyyət istiqamətlərindən biri də gənclərlə iş sahəsində beynəlxalq əlaqələrin qurulmasıdır. Nazirlikdə bu istiqamətdə Beynəlxalq əlaqələr şöbəsi fəaliyyət göstərir. Bu məqsədlə nazirlik BMT, o cümlədən UNESCO, Avropa Şurası, Avropa İttifaqı və digər beynəlxalq təşkilatların gənclər proqramlarına qoşulur, həmçinin MDB və digər ölkələrin gənclər təşkilatları ilə ikitərəfli əməkdaşlığın qurulması istiqamətində konkret addımlar atır. Bununla yanaşı, respublikanın gənclər təşkilatları BMT-nin, YUNESKO-nun, Avropa

Şurasının, Avropa Birliyinin və s. beynəlxalq qurumların gənclər proqramlarına qoşulur, birgə layihələrdə iştirak edirlər.

Gənclər təşkilatlarıda beynəlxalq əməkdaşlığın inkişafında fəal rol oynayırlar. Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurasının bu yöndə böyük xidmətləri olmuşdur. Həyata keçirilən işlərin nəticəsi olaraq qısa müddət ərzində bir sıra gənclər təşkilatları beynəlxalq təşkilatlarda təmsil olunmaq hüququ əldə etmişdir. Məsələn, Gənc Hüquqşünaslar Birliyi Gənc Hüquqşünasların Beynəlxalq Assosiasiyasına, Azərbaycan Demokratik Tələbə Gənclər Hərəkatı Avropa Demokratik Tələbə İttifaqına və s. üzv daxil edilmişdir (Cəfərov, 2012, s. 391). 125-dən çox gənclər təşkilatını özündə birləşdirən Milli Şura 2000-ci ildə Azərbaycanı beynəlxalq səviyyədə, Avropa Gənclər Forumunun tamhüquqlu üzvü kimi təmsil edir. 2002-ci ilin yanvarından BMT-nin Sosial-İqtisadi Şurasında müşahidəçi statusu almışdır. 2004-cü ildə Milli Şura İslam Konfransı Gənclər Forumunun həmtəsisçisi və tamhüquqlu üzvü olmuşdur (Fras et al., 2021, p. 18).

Müasir mərhələdə gənclər siyasətinin inkişafı və institutlaşmasında beynəlxalq sammitlərin, konfransların və forumların mühüm rolu vardır. Buna nümunə olaraq 2010-cu ildə Kolombiyada və 2014-cü ildə Şri-Lankada keçirilən "Dünya Gənclər Konfransı" göstərilə bilər. Bu cür tədbirlər ölkələrin dünya ictimaiyyətinə öz ideya və təcrübələrini nümayiş etdirməsinə, eləcə də yeni layihələr və təşəbbüslərlə tanış olmasına şərait yaradaraq bu sahədə beynəlxalq əməkdaşlığın inkişafa töhfə verir. Azərbaycanda da gənclərlə bağlı bir sıra beynəlxalq səviyyəli tədbirlər uğurla həyata keçirilmişdir.

2014-cü ildə BMT Baş katibinin Gənclər üzrə elçisinin ofisi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Avropa Şurası və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Bakıda ilk Qlobal Gənclər Siyasəti Forumu keçirilmişdir. Forumda BMT-yə üzv 115 ölkənin gənclər məsələlərinə cavabdeh ali dövlət qurumlarının nümayəndələri iştirak etmişdir. Həmçinin 165 ölkədən 700-dən çox nümayəndə iştirak etdi: dünyanın müxtəlif regionlarından olan gənclər, gənclər təşkilatlarının üzvləri, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri. Bu forumda müasir gənclər siyasətinin əsas xüsusiyyətləri diqqət mərkəzində olmuş, regional baxış bucaqları üzrə tövsiyələr təqdim edilmişdir. Eyni zamanda, hökumətlərin gənclər siyasətini həyata keçirərkən riayət etməli olduqları əsas prinsiplər müəyyənləşdirilmişdir (UNDP, 2015).

İlk Qlobal Gənclər Siyasəti Forumunun Bakıda keçirilməsi Azərbaycanda aparılan davamlı və effektiv gənclər siyasətinə verilən yüksək qiymət idi. Bu forum yalnız Azərbaycanda deyil, eyni zamanda dünyada gənclər siyasətinin inkişafına da təkan vermişdir.

## NƏTİCƏ

Azərbaycan Respublikasının gənclər və idman siyasətində beynəlxalq təcrübəyə əsaslanan normativ-hüquqi təminatının formalaşdırılması, davamlı dövlət proqramlarının həyata keçirilməsi, mürəkkəb dövlət idarəetmə sisteminin və çoxsaylı dövlət institutlarının yaradılması, gənclər təşkilatlarının sayının ildən-ilə artması və fəaliyyət dairələrinin genişlənməsi, habelə müxtəlif ölkələr və beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi bu sahədə dövlət siyasətinin yüksək institutlaşma səviyyəsinə malik olduğunu göstərir.

İnstitutlaşmanın gənclər və idman siyasətində yüksək səviyyədə olması, bu sahədə gənclərin iştirakçılığının artırılmasına, gənclərin problemlərinin məhz onların özlərinin fəal iştirakı ilə və aradan qaldırılmasına şərait yaradır. Bu yanaşma gəncləri siyasətin passiv obyektindən aktiv subyektinə çevirərək, qəbul edilən qərarların daha real ehtiyaclara əsaslanmasını və həyata keçirilən tədbirlərin səmərəliliyinin artmasını təmin edir.

Beləliklə, Azərbaycan Respublikasının dövlət gənclər və idman siyasətində institutlaşmasının başlıca istiqamətləri təşkilatların və prosedurların sabitləşdirilməsi, dövlətin rolunun gücləndirilməsi və gənclərin hərtərəfli inkişafının təmin olunması ilə ifadə olunur.

## ƏDƏBİYYAT

1. Aslanlı, G. (2023). Azərbaycan Respublikasında idmanın inkişaf perspektivlərinin qurulmasında Heydər Əliyev siyasətinin rolu. *Akademik Tarih ve Düşünce Dergisi, 10*(1), 131–143. https://doi.org/10.46868/atdd.2023
2. Azerbaijan Respublikası. (1995). *Azərbaycan Respublikasının Konstitusiyası*. https://e-qanun.az/framework/897
3. Azerbaijan Respublikası. (2002). *Azərbaycan Respublikasının Gənclər siyasəti haqqında Qanunu*. https://e-qanun.az/framework/1619
4. Azerbaijan Respublikası. (2015). *Azərbaycan Respublikasının Prezidenti Sərəncamı: 2015–2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf strategiyasının təsdiq edilməsi haqqında*. https://e-qanun.az/framework/29206
5. Bağırzadə, C. (2025). İlham Əliyev və dövlət gənclər siyasəti: Azərbaycan Respublikasında 2003–2023-cü illərdə gənclər siyasəti dövlət proqramları. *Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir" Respublika elmi konfransının materialları* (I cild). Mingəçevir Dövlət Universiteti.
6. Cəfərov, A. M., & İmaməliyev, E. B. (Red.). (2012). *Azərbaycanın ictimai həyatında gənclərin rolu*. SPb.; Bakı: MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi. https://iacis.az/public/upload/files/1/4.pdf
7. Cəfərov, H. (2007). *Azərbaycanda gənclər hərəkatı yeni inkişaf mərhələsində (1940-2007-ci illər)*. Bakı: Adiloğlu.
8. Cəfərov, H. (2009). *Azərbaycanda gənclər hərəkatı (XX əsr)*. Bakı: Nurlan.
9. Fras, M., Jeżowski, M., & Pavlovych, A. (2021). *Youth Policy in Eastern Partnership countries and the Russian Federation*. Warsaw: Foundation for the Development of the Education System.
10. Hahn-Bleibtreu, M., & Molgat, M. (Eds.). (2012). *Youth policy in a changing world*. Toronto: Barbara Budrich Publishers.
11. Hasankhanli, M. (2025). Legal foundations of youth policy in Azerbaijan: Normative framework and strategic priorities. *Baltic Journal of Legal and Social Sciences, No. 2*, 166–172. https://doi.org/10.30525/2592-8813-2025-2-20
12. Huntington, S. (1968). *Political order in changing societies*. New Haven and London: Yale University Press.
13. Oxfam. (2016). *Youth and inequality*. https://www.oxfamitalia.org/wp-content/uploads/2016/08/bp-youth-inequality-global-120816-embargo-en-final.pdf
14. Rzayev, Ə. (2021). *Dövlət İdarəetməsi: Nəzəriyyə və Praktika*. Bakı: Elm.
15. Sadıqov, E. (2023). Ulu Öndər Heydər Əliyev və Azərbaycan Gəncliyinin İnkişaf Strategiyası. *Akademik Tarih ve Düşünce Dergisi, 10*(1), 191–199. https://doi.org/10.46868/atdd.2023
16. Shafibayli, R. (2023). The role of state social policy in increase of the social status and activity of the young people in Azerbaijan. *Path of Science, 9*(7), 6001–6008. https://doi.org/10.22178/pos.94-15
17. United Nations Development Programme. (2015). *First Global Forum on Youth Policies: Report*. Baku.
18. Gənclər Fondu. (t.y.). https://youthfoundation.az/
19. Youth Policy Press. (2014). *The state of youth policy in 2014*. https://www.youthpolicy.org/uploads/2014_State_Youth_Policy_2014_En.pdf

## ABSTRACT
## THE MAİN DİRECTİONS OF THE INSTITUTIONALIZATION OF STATE YOUTH AND SPORTS POLICY IN THE REPUBLIC OF AZERBAIJAN

**Khalil Yusifli**

The article examines the main directions of the institutionalization of state youth and sports policy in the Republic of Azerbaijan, which has been implemented for over 30 years. The purpose of the study is to determine the impact of the institutionalization of state youth and sports policy on the effectiveness of state policy and the socio-economic development of youth. Within the framework of the study, four main directions were analyzed: the formation of normative-legal support, the development of public administration and state institutions, the support of youth organizations, as well as the strengthening of international integration and global cooperation. In the article, the methods used include content analysis and historical methods, widely applied in social sciences, to analyze the activities and State Programs carried out under the leadership of National Leader Heydar Aliyev and President Ilham Aliyev. The analysis shows that the youth and sports policy of the Republic of Azerbaijan has a high level of institutionalization; this creates conditions for increasing youth participation and addressing their problems through their active involvement. Thus, the institutionalization of state youth and sports policy is characterized by the stabilization of organizations and procedures, strengthening the role of the state, and ensuring the socio-economic development of youth.
**Keywords:** youth and sports policy, institutionalization, normative-legal support, public administration, youth organizations

## АННОТАЦИЯ
## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ИНСТИТУЦИОНАЛИЗАЦИИ ГОСУДАРСТВЕННОЙ МОЛОДЕЖНОЙ И СПОРТИВНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Халил Юсифли**

В статье исследованы основные направления институционализации государственной молодежной и спортивной политики в Азербайджанской Республике, осуществляемой более 30 лет. Цель исследования — определить влияние институционализации государственной молодежной и спортивной политики на эффективность государственной политики и социально-экономическое развитие молодежи. В рамках исследования проанализированы четыре основных направления: формирование нормативно-правового обеспечения, развитие государственного управления и государственных институтов, поддержка молодежных организаций, а также укрепление международной интеграции и глобального сотрудничества. В статье в качестве метода использованы контент-анализ и исторический метод, применяемые в общественных науках, для анализа мероприятий и Государственных программ, реализованных под руководством Общенационального Лидера Гейдара Алиева и Президента Ильхама Алиева. Проведенный анализ показывает, что молодежная и спортивная политика Азербайджанской Республики обладает высоким уровнем институционализации; это создает условия для повышения участия молодежи и решения их проблем именно при их активном участии. Таким образом, институционализация государственной молодежной и спортивной политики характеризуется стабилизацией организаций и процедур, усилением роли государства и обеспечением социально-экономического развития молодежи.

**Ключевые слова:** *молодежная и спортивная политика, институционализация, нормативно-правовое обеспечение, государственное управление, молодежные организации*